# Atifin can evi viranə idi, lakin onu
# Alışan duyğuları etdi çıraqban gecələr.

***Atif Zeynallının həyatı AMEA Ədəbiyyat İnstitutu ilə bağlı idi: orada kiçik elmi işçi, sonra isə böyük elmi işçi (1960) vəzifəsində çalışmışdır.***



**Atif ZEYNALLI**

## Həştərxana gedən gəmi ləng olur...

*Müəllimim Mir Cəlala ithaf*

Günəş batır qucağında Xəzərin,
Hər şöləsi bir ləpəni yandırır.
Sənin yenə sulardadır nəzərin,
Üfüq nəhəng bir tonqalı andırır.

Duyğuların qanad çalıb üfüqdə,
Dəstə-dəstə qağayıtək dillənir.
De, gözlərin hərdən qalıb üfüqdə
Nəyə görə bir nöqtəyə zillənir?

Yaxındakı adaların meşəsi,
Elə bil ki, o nöqtədə boy atıb.
Bir şəkildir Xəzərin bu guşəsi
Rəssam onun hər rənginə zər qatıb.

Bəlkə, elə diqqətini cəlb edən
Üfüq deyil, bu şəkildir bayaqdan?
Qürub çağı gəmi ilə yol gedən,
Axı, ona valeh olur uzaqdan?

Adaların min-min quşun yatarı,
Dəstə-dəstə ördək uçur, qaz uçur.
Qaqqıldaşan durnaların qatarı,
Hayıf Bakı səmasında az uçur.

İri-xırda balıqlardır bəzəyi,
Gəmimizə dəyən hər bir dalğanın.
Doğma Xəzər Vətənimin ürəyi,
Qantək axır ona suyu Volqanın.

Burda hələ nə qaya var, nə sahil,
Çay dənizə, dəniz çaya qarışıb.
İki həsrət sevgilidir elə bil,
Sevinc ilə bir birinə sarışıb.

Dörd saatdır Volqa boyu gedirik,
Göy Xəzərdən çıxmamışıq hələ biz.
Diqqət ilə ətrafı seyr edirik,
Lakin hər yan elə dənizdir, dəniz...

Gəmimizin sürəti də azalır,
Elə bil ki, nəfəsi də təng olur.
Göyərtədən bu dəm nəğmə ucalır:
"Həştərxana gedən gəmi ləng olur".

Nəğmə quştək uçur, uçur uzağa
Sonra isə düşüb qalır sularda.
Axı, niyə gəmi getmir qabağa,
Bəlkə, artıq lövbər salır sularda?

O, bu ara: elə nəğmədir ki, bu
Dənizçilər oxuyurlar bu gün də,
Hanı belə üfüq, meşə, ada, su,
Kim baş əyməz gözəlliyin önündə?

Min aləmdir təbiətin görkəmi,
Andan-ana daha da qəşəng olur.
Qürub çağı burdan ötən hər gəmi,
Yəqin, elə ona görə ləng olur.

Hayıf rəssam deyiləm ki, bu yeri
Rəsm eləyim ağ kağızda necə var!-
Deyib, sonra seyrə dalıb Xəzəri,
Əvvəlkitək susur yenə sənətkar.

Dəniz canlı bir əsərdir gözündə
Günəş batır... gəmi şütüyüb gedir.
Elə bil ki, yüz tablonu əks edir,
Bu əsərin hər varağı özündə!

***("Xəzər dənizçisi" qəzeti, 25 avqust 1965-ci il)***

## Gecələr

Dağ çəkib sübhə kimi sinəmə hicran gecələr,
Bu səbəbdən qaradır gözləri giryan gecələr.

Könlümün pəriləri göydə ocaq tək közərir,
Ona səyyarə deyir bir parə nadan, gecələr.

Bülbülün aşiqi-şeyda kimi çox şöhrəti var,
Niyə olmur, o mənim tək belə nalan gecələr.

Yaxşı ki, təb məni canan sayağı tək qoymur,
Qoparır fikri xəyalımda o, tufan gecələr.

Atifin can evi viranə idi, lakin onu
Alışan duyğuları etdi çıraqban gecələr.

* * *

İki-üç addımdan Savalan dedim,
Ondan uzaq salıb çox illər məni.
Könlümün quşuna havalan dedim,
Yaxın buraxmadı sahillər məni.

Dağı ayaqladım, aranı gəzdim,
Arpaçay selində Saranı gəzdim,
Yurdumun köksündə yaranı gəzdim,
Saxladı tikanlı məftillər məni.

Bütün Araz boyu diz-dizi gəzdim,
Qardaş izi gəzdim, dost izi gəzdim,
Xəyalən Təbrizi, Qəzvini gəzdim,
Səslədi gələcək nəsillər məni.

Ədəbiyyat qəzeti.- 2018.- 9 noyabr.- S.27.